

Türk Müziği, Mart 2023
3(1), 111-120, e-ISSN: 2822-3195
turkmuzigidergisi.com

Genç Bilge yayıncılık
gencbilgeyayincilik.com
© 2023

**Araştırma Makalesi**

# Azerbaycan opera müğennisi Huraman Qasımova'nın Türkiye respublikasında fealiyyet dövrünün xüsusiyyetleri[1]

Nigar Melikova[2]

Ü.Hacıbeyli adına Bakı Musiqi Akademiyası Bakü, Azerbaycan

**Makale Bilgisi**

**Geliş:** 12 Aralık 2022
**Kabul:** 5 Şubat 2023
**Online Yayın:** 15 Mart 2023

**Anahtar Kelimeler**
Huraman Qasımova
Konser
Müzik eğitimi
Soprano
Türkiye
Vokal

2822-3195 / © 2023 TM
Genç Bilge Yayıncılık tarafından yayınlanmakta olup, açık erişim, CC BY-NC-ND lisansına sahiptir.

**Öz**

Makale, seçkin Azerbaycanlı opera sanatçısı, Halk Sanatçısı, profesör Huraman Gasımova'nın Türkiye Cumhuriyeti'ndeki faaliyetlerinin araştırılmasına ayrılmıştır. Huraman hanım Türkiye'de düzenlenen uluslararası festivale ilk kez 1983 yılında katılmıştır. 1994 yılında Türkiye'ye davet edilen H. Gasımova, 1997 yılına kadar İstanbul Üniversitesi Konservatuarı'nda öğretmen olarak çalıştı. Huraman hanım Türkiye'deki pedagojik ve oyunculuk faaliyetlerinin yanı sıra genç personelin yetiştirilmesinde de önemli rol oynamıştır. Makale, H. Gasımova'nın Türkiye'de öğretilen müzik eğitiminden tamamen farklı olan öğretim metodolojisini ayrıntılı olarak incelemektedir. Avrupa vokal okulunun geleneklerine dayalı öğretim yöntemlerinin kullanılması, H. Gasımova'nın pedagojik faaliyeti için tipiktir. Huraman hanım, Türkiye'deki ses eğitimi programını mesleki gerekliliklere göre yeniden düzenlemeyi başardı ve bu sırada öğrencinin performans becerilerini kademeli olarak oluşturma yöntemine dayanıyordu. H. Gasımova, Türkiye'de akademik ses icra geleneklerinin oluşturulması doğrultusunda yeni bir öğretim metodolojisi oluşturmuş ve ses ile ilgili çalışmalara önem vermiştir. Metodolojisinin temeli, sesin korunması ve vokal icracının sesinin rahat bir şekilde geliştirilmesidir.

**Makaleye atıf için**
Melikova, N. (2023). Azerbaycan opera müğennisi Huraman Qasımova'nın Türkiye respublikasında fealiyyet dövrünün xüsusiyyetleri. *Türk Müziği, 3*(1), 111-120.

## Giriş

Azerbaycan ve Türkiye dövletleri arasında medeni elaqelerin yaranmasında müxtelif sahelerde fealiyyet gösteren incesenet nümayendelerinin mühüm rolu olmuşdur. Azerbaycanın müsteqilliyinin ilk illerinde incesenet sahesinde çalışan senetkarların Türkiye Cümhuriyyetinde fealiyyet göstermesi her iki dövlet arasında medeni bağlılığın yeniden dirçeldilmesine sebeb olmuşdur.

Görkemli Azerbaycan opera müğennisi, Xalq artisti, professor Xuraman Qasımova zengin ve herterefli yaradıcılıq fealiyyetine malikdir (Web 1). Avropa vokal ifaçılıq eneneleri esasında tehsil alan Xuraman Qasımova uzun illerdir ki, ifaçılqla yanaşı, hem de pedaqoq kimi de çalışır (Foto 1). Professional oxuma terzinin metodikasına derinden beled olan X.Qasımova öz metodiki prinsiplerini yaradaraq, genc ifaçıların sesinin formalaşmasında mühüm rol oynamışdır. Xuraman xanıma dünyanın müxtelif ölkelerinden pedaqoji fealiyyetle meşğul olmaq için devetler olsa da, o yalnız Türkiyeden gelen teklifi qebul etmişdir. Xuraman xanımın Türkiye fealiyyeti onun yaradıcılığının en zengin ve mühüm dövrü olmaqla yanaşı, senetkarın vetenden kenarda uzun müddet yaşayaraq fealiyyet gösterdiyi dövr kimi de seciyyelene biler. Xuraman xanımın bacısı, görkemli opera ifaçısı, Azerbaycan ve SSRİ Xalq artisti, professor Fidan Qasımova 1992-ci ilden Türkiyede pedaqoji fealiyyetle meşğul olmuşdur. 1994-cü ilden ise opera sehnesinde çoxsaylı obrazlar yaradan

1 Bu araştırma 2. Uluslararası Rast Müzik Kongresi'nde (14-15 Ocak 2023, Antalya, Türkiye) sözlü bildiri olarak sunulmuştur.

2 Öğretim Görevlisi, Ü.Hacıbeyli adına Bakı Musiqi Akademiyası Bakü, Azerbaycan. E-mail: m.nigar79@mail.ru ORCID: 0000-0003-4661-4553

X. Qasımova Türkiye'ye devet olunmuş ve İstanbul Universitetinin nezdinde olan konservatoriyada 1997-ci ile qeder pedaqoji fealiyyetle meşğul olmuşdur. Burada fealiyyet gösterdiyi illerde Xuraman xanım pedaqoji fealiyyetle yanaşı, Türkiye'nin bir çox şeherlerinde, o cümleden İstanbul ve Ankarada konsertler vermişduir. X.Qasımova hemçinin italyan bestekarı C.Verdinin "Aida" operasında Aida partiyasını türk opera ifaçıları ile birlikde ifa etmişdir. X.Qasımova Türkiyede vokal ifaçılıq enenelerini formalaşdırmış ve genc vokal ifaçıların müsteqil şekilde fealiyyet göstermesinde öz desteyini göstermişdir.



**Foto 1.** Azerbaycan Respublikasının Xalq artisti, professor Xuraman Qasımova

**Araştırma Amacı ve Problemi**

Araştırmanın esas amacı Xuraman xanımın Türkiye'de pedaqoji ve ifaçılıq fealiyyetini, genc kadrların hazırlanmasındakı ehemiyyetini aşkara çıxarmaqdan ibaretdir. Bu amacın heyata keçirilmesi için onun klassik enenelere esaslanan professional akademik vokal tehsili almasını ve vokal metodikasına beled olmasını, vokal oxuma imkanlarına malik olan türk genclerinin mehz bu enenelere esaslanan ifalarının formalaşmasında mühüm rolunu tarixi baxımdan tehlil edib araşdırmaq, Xuraman Qasımova'nın pedaqoji ve ifaçılıq fealiyyetini tedqiq etmek gerekdir. Ayni şekilde X.Qasımova'nın pedaqoji metodikası, vokal derslerin tedrisinin xüsusiyyetleri ve onun bu saheye getirdiyi yenilikleri müeyyen etmek amaca ulaşmak icin mühümdür. Ana problem;

- Xuraman Qasımovanın Türkiye Cümhuriyyetinde fealiyyet dövrünün xüsusiyyetleri neden ibaretdir? şeklindedir.

Alt problemler ise;

- Xuraman Qasımova Türkiye Cumhuriyeti'ndeki faaliyet alanlarından onun hangi özellilerini öne çıkarmış ve hangi yenilikleri göstermişdir?
- Xuraman Qasımova Türkiye'de ses öğretim metodolojisinde hangi özellikleri kullanılmaktadır?
- X.Qasımovanın pedagojik metodolojinin özellikleri nelerdir??
- Vokal sanatçısı kibi, X.Qasımova Türkiye'de verdiği konserlerde ve katıldığı opera temsillerinde performans özelliklerini nasıl gösterdi?
- X.Qasımovanın türk vokal sanatçılarıyla ilişkileri ne düzeyde?

## Yöntem

**Araştırma Modeli**

Nitel araştırma yöntemlerinden doküman analizi teknikleri ve Xuraman Qasımova ile yapılan görüşmeler kullanılmıştır. Bu araştırmada, Xuraman Qasımova'nın Türkiye Cumhuriyeti'ndeki faaliyet döneminin tarihçesi ve buradaki pedagojik ve konser faaliyetlerinin özellikleri ortaya konmuştur. Araştırmada Xuraman Qasımova'nın genç Türk ses sanatçılarına verdiği derslerin metodolojik özellikleri not edildi. Aynı zamanda X.Qasımova 'nın Türkiye'deki konser faaliyetlerine ve opera performanslarına katılımı incelendi ve başarıları vurgulandı.

**Dokumanlar**

Araştırmada, Azerbaycan ses sanatının önde gelen temsilcisi X.Qasımova'nın Türkiye'deki faaliyet dönemi esas tehlil obyekti seçilmiştir. Buna sebeb ise X.Qasımova'nın 1994-97 yıllarında vokal öğretmenlik yapması ve bir çok operalarda esas partiyaları ifa etmesidir. Bundan başqa, görkemli ifaçı fealiyyeti zamanı türk vokal ifaçılıq mektebini Avropa enenelerine uyğun şekilde inkişaf etdirmişdir.

**Görüşme**

Araşdırma zamani görkemli vokal ifaçısı Xuraman Qasımova'dan Türkiye'de fealiyyet dövrü haqqında ve vokal ifaçıların yetişdirilmesi barede töhfeler haqqında şifahi müsahibe götürülmüşdür (Foto 2). Bu görüşde ifaçıya suallar ünvanlanmış, onun Türkiyedeki pedaqoji ve yaradıcılıq fealiyyeti şexsi fikirleri alinarak meqaleye daxil edilmişdir.



**Foto 2.** Araştırmacının Xuraman Qasımova ile görüşmesi

**Bulgular**

Azerbaycan senetkarlarının Türkiye medeniyyetine olan marağı özünü demek olar ki, bütün sahelerde tecessüm etdirir. X.Qasımovanın Türkiyedeki fealiyyeti pedaqoji ve yaradıcılıq sahelerini ehate edir. Lakin her bir saheye ayrılan yer ve diqqet özünü ferqli şekilde gösterir. Bu baxımdan, X.Qasımovanın Türkiyedeki fealiyyetinin araşdırılması Türk vokal senetinin inkişafında daşığıdı mühüm ehemiyyetden ireli gelerek, aktualdır. X.Qasımovanın Türkiye yaradıcılıq ve pedaqoji fealiyyet dövrünü izlesek, burada onun mehsuldar çalışması ve türk vokal mektebi enenelerini yaratması prosesini müşahide ede bilerik. Bele ki, ilkin olaraq, X.Qasımova genc türk vokal ifaçılarının öyredilmesi meqsedile professional teleblere uyğun olan tedris proqramını tertib etmiş ve bu zaman telebenin merheleli şekilde ifaçılıq bacarıqlarının formalaşdırılmasına esaslanmışdır. Maraqlı fakt ondan ibaretdir ki, X.Qasımova Türkiyede fealiyyet gösterdiyi illerde çoxsaylı genc vokalçılar yetişdirmiş, onların ses tellerinde olan problemleri vaxtında aşkar ederek, seslerinin qorunub saxlanılmasına nail olmuşdur. Sonrakı illerde X.Qasımova her defe Türkiyeye sefer etdikce, İstanbul Universitetinin nezdinde olan konservatoriyada telebelerle görüşür ve öz pedaqoji tecrübesini onlarla bölüşür.

**Xuraman Qasimova'nın Türkiyede Pedaqoji Fealiyyetinin Özellikleri**

Xuraman xanım müsahibe zamanı bildirdi ki, onun ders metodikası Türkiyede tedris olunan musiqi tehsilinden tamamile ferqlenirdi. O, pedaqoji fealiyyetinde Avropa vokal mektebi enenelerine esaslanan tedris üsullarından istifade ederek sesin nefes üzerinde qurulmasına, düzgün istifade edilmesine diqqet verirdi. Hemçinin, diafraqmanı çalışdırmaq, qırtlaqla oxumamaq,ifada selist ve aydın teleffüz, musiqi formasını, her bir eserin janrına ve yazıldığı dövre uyğun olaraq seciyyevi keyfiyyetlerini göstermek üsulları türk vokal ifaçıları için yeni ve ferqli ders metodikası idi.İlk derslerden Xuraman xanım ifaçıda her meşğelenin tonal yüksekliyini teyin edir, melodik hereketin (yuxarı ve aşağı istiqametlerde), interval ve sayını, çalışmaların diapazonunu müeyyen edirdi. Nefesin düzgün götürülmesini: burundan diafraqma ile (inhalyasiya) qısa, lakin derin nefesi alıb saxlayaraq ağızdan ekshalyasiya (nefesin ağciyerden atmosfere keçme) prosesini kontrol edirdi (Foto 3).







**Foto 3.** Vokal ifaçılığında nefesin düzgün götürülmesi

Xuraman Qasımova deyir: *"Düzgün nefesalma-ifanın fundamentidir. Diafraqma ise-sesin dayağıdır"* (Araştırmacının X.Qasımova ile görüşmesi. 5 dekabr 2022-ci il). Qarınla düzgün nefes almaq için ilk növbede diafraqmanı hiss etmek lazımdır.Bunu aydın şekilde izah etmek için Xuraman xanım telebelere horizantal şekilde düz yerde uzanaraq ellerini qarın nahiyesine qoyub nefesin nece götürülmesini müşahide etmek kimi tövsiyelerini verirdi.

**Xuraman Qasımova'nın Pedaqoji Metodikası**

X.Qasımova vokal üzre tedris proqramının professional teleblere uyğun olaraq, yeniden tertib olunmasına nail olmuş ve bu zaman telebenin merheleli şekilde ifaçılıq bacarıqlarının formalaşdırılması metoduna esaslanmışdır. Genc telebelerin seslerinin hedsiz derecede mürekkeb proqramla yüklenmesinin onların ses tellerine menfi tesir etdiyini müşahide etmiş ve bunun gelecekde ciddi fesadlara sebeb olacağını bildirmişdir. O vurğulayır ki, onun pedaqoji fealiyyeti ele şekilde qurulmuşdur ki, professional vokal tehsilini tamamlayan her bir genc ifaçı mükemmel repertuara malik olurdu. Hemin gencin müxtelif bestekarların eserlerinden ibaret ve her zaman ifa ede bileceyi professional terzde tertib edilmiş repertuara malik olması ona qısa bir müddet erzinde sehneye çıxaraq, özünü tanıtmasına getirib çıxarırdı.

**Türk Vokal İfaçılarının Seslerinde Olan Problemler**

O, böyük teessüf hissi ile bildirdi ki, hemin dövrde Türkiyede çox zaman genc vokal ifaçılarının sesleri düzgün yönelmediyi için onların ses tellerinde böyük problemler yaranırdı. O, Türkiyeye geldiyi ilk dövrde bele hallarla çox rastlaşdığını xatırlayır, hetta heç bir müayine olmadan sesde olan xesteliyin ve problemlerin ancaq ifaçının oxuması ile müeyyen etmesinin hekim terefinden teeccüble qarşılanmasını qeyd edir. Hekim yoxlanmasından keçen ifaçılarda müeyyen xestelikler, xüsusile ses tellerinde düyün olması vaxtında aşkar olunur ve müalice alınaraq qorunurdu. Amma bezi genclerde ses tellerindeki xestelikler gec aşkar edildiyi için onların vokal oxuma ile meşğul olmalarında maneeler yaranırdı ve hetta hemin telebeler bu saheden uzaqlaşmaq mecburiyyetinde de qalırdılar. Ses tellerinde olan düyünün emele gelmesinin esas sebebini o,telebelerin düzgün klassik formada çalışmadıqları ile elaqelendirmişdir.Hekimler çox zaman ifaçıya texminen iki ay müddetinde susmağı meslehet görseler de,Xuraman xanım ses tellerini qoruyaraq calisdırmaq vacibliyini vurğulayirdi.Axı müeyyen müddet susduqdan sonra ses tellerini yeniden yükleyib oxumaq artıq başqa bir problem yarada bilerdi.Bütün bunları formalaşdırdıqdan sonra elbette ki, eser üzerinde de işlemek mümkündür. Vacib şertlerden biri vokal ifaçısının yaşına, ses imkanlarına ve bacarığına uyğun eser seçilmesi idi. Yeni başlayan ifaçı için böyük ariyalar evezine, kiçik hecmli eserlerin oxunması daha düzgündür. X.Qasımova vokal üzre tedris proqramının professional teleblere uyğun olaraq, yeniden tertib olunmasına nail olmuş ve bu zaman telebenin merheleli şekilde ifaçılıq bacarıqlarının formalaşdırılması metoduna esaslanmışdır.

**Tedris Prosesinde Vokal Repertuarın Seçilmesi**

Vacib şertlerden biri vokal ifaçının yaşına ve hemin yaşda olan ses tellerine uyğun eser seçilmesidir. Yeni başlayan ifaçı için böyük ariyalar evezine, kiçik hecmli eserlerin oxunması daha düzgündür. Meselen, birinci kursa qebul olan 17-18 yaşlı genc ifaçı için C.Puççininin "Toska" operasından ariya oxunması böyük çetinlik yaradar ve eyni zamanda onun ses tellerinin yüklenmesine getirib çıxarar. Her sesin imkanlarına ve bacarığına uyğun eser oxunması daha meqsedeuyğundur. Görkemli ifaçı bu metodikasını hem Azerbaycanda, hem de Türkiyede verdiyi vokal derslerinde tetbiq etmişdir. O bildirir ki, mehz bu yanaşması genc vokal ifaçılarının seslerinin qorunmasına sebeb olmuşdur ve bunun neticesinde onların seslerinde her hansı bir problemli xestelik yaranmamışdır.

**Xuraman Qasımovanın Türk Vokal İfaçılarının İş Fealiyyetinde Rolu**

Xuraman Qasımova düzgün qurulmuş metodikasının sayesinde çoxsaylı uğurlu telebeler yetişir. Bele ki, qısa müddet erzinde Qasımova bacılarının duzgun qurulmuş metodikası boyuk maraga sebeb olur ve her kes İstanbul'da Kadıköy Konservatoriyasında Azerbaycandan olan iki senetçinin mükemmel genc vokal ifaçılar yetişdirdiyinden behs edir. İstanbul Opera teatrı hemin genc telebelerle maraqlanmağa başlayır. Azerbaycanda bezen yaxşı ifaçını telebelik illerinde işe devet edirler, amma Türkiye'de bele asanlıqla işe düzelmek mümkün deyildir. Türkiyede telebelere işlemek için nazirlik terefinden xüsusi icaze verilmelidir. Xuraman ve Fidan Qasımovalar hökümete xüsusi bir mektubla müraciet ederek yaşa dolmuş ve ses imkanları zeifliyen kadrların teatrda genc ifaçılarla evez olunmasının vacibliyini vurğulamışlar. Hemin dövrde Türkiye Cumhuriyyeti'nin baş naziri Tansu Çiller mektubu diqqetde saxlayaraq problemlemin hell edilmesine kömeklik edir. Belelikle, yetişdirilen genc kadrlar opera teatrna devet olunur ve solist kimi işe götürülürler. Xuraman xanım bu hadisenin Türkiye hökümeti terefinden xüsusi hörmet ve reğbetle qarşılanmasını onların senetine ve pedaqoji fealiyyetine verilen yüksek deyerle elaqelendirir. Xuraman xanım bacısı Fidan xanımla Türkiye'nin bir neçe esas şeherinde pedaqoji fealiyyetle meşğul olduğu beş il erzinde bir çox istedadlı genc vokal ifaçıların teatrda işle temin olunmasına nail olmuşdur. Hazırki dövrde onların telebeleri Türkiye'nin müxtelif şeherlerinde opera teatrında fealiyyet gösterirler.

**Ses Üzerinde Çalışmalar**

Xuraman Qasımova, Türkiye'de akademik vokal ifaçılıq enenelerinin yaranması istiqametinde yeni tedris metodikası yaratmış ve ses üzerinde olan çalışmalara diqqet yetirmişdir. Onun metodikasının esasını sesin qorunması ve vokal ifaçısının öz sesini rahat şekilde inkişaf etdirmesi teşkil edir. Esas da onun metodikasında idman hereketleri vasitesile sese elave güc vermesi böyük marağa sebeb olmuşdur. Bu zaman sesin düzgün inkişafı baş verir ve nefesin düzgün götürülmesi formalaşmağa başlayır. Xuraman xanım hem Azerbaycan'da, hem de Türkiye'de bu metodikadan istifade etmişdir.

Görkemli senetkar Türkiye'de fealiyyet gösterdiyi illerde çoxsaylı genc vokalçılar yetişdirmişdir. Azerbaycan musiqi medeniyyetinde vokal ifaçılıq senetinin inkişafında mühüm rol oynayan görkemli senetkar eyni xetti Türkiye'de de davam etdirmeye çalışmışdır. Onun yetirmeleri müxtelif ölkelerde keçirilen beynelxalq müsabiqelerde görkemli senetkarın onlara exz etdiyi professional seviyyeni göstermeye çalışmışlar. Avropa professional oxuma terzine malik olan ve milli vokal ifaçılıq mektebinin enenelerini qoruyub saxlayan Xuraman xanım Türkiye'de de vokal senetinin formalaşmasında ve inkişaf yoluna qedem qoymasında mühüm rol oynamışdır. Türkiye'de fealiyyet gösterdiyi illerde o, yorulmadan istedadlı telebelere xeyli vaxt serf edir, yeni ve professional ifa terzine malik olan vokalçılar nesli yetişdirmeye çalışmışdır. Hemin genc ifaçıların ekseriyyeti müxtelif istiqametli müsabiqelerde iştirak ederek, diplomant ve laureat adına layiq görülmüşler. Bununla da türk gencleri professional opera senetinde öz vokal imkanlarını nümayiş etdirmeye nail olmuşlar.

**X. Qasimova'nın Tedris Prosesinde İstifade Etdiyi Vokal Meşğeleler**

Böyük bir pedaqoji tecrübeye malik olan X.Qasımova tedris prosesinde müxtelif vokal meşğelelerden istifade edir.




**Nota 1.** X. Qasımova'nın tedris prosesinde istifade etdiyi vokal çalışma




**Nota 2.** X. Qasımova'nın tedris prosesinde istifade etdiyi vokal çalışma




**Nota 3.** X. Qasımova'nın tedris prosesinde istifade etdiyi vokal çalışma




**Nota 4.** X. Qasımova'nın tedris prosesinde istifade etdiyi vokal çalışma

Xromatik şekilde (yuxarı ve aşağı) oktava ve oktava yarım hecminde(vokalçının ses imkanlarına istinad olunaraq) ifa olunan meşğeleler sesin imkanlarını genişlendirmek için nezerde tutulub. Bu çalışmaları bele izah ede bilerik:

- ”e-u-a-i-e-u-a-i” çalışması açıq (a,e,e,o,ö) ve qapalı (ı,i,u,ü) saitlerin eyni yüksek pozisiyada oxunmasına esaslanır (Nota 1).
- “re-lya-re-lya...” müxtelif samit seslerle oxunan bu çalışma oktava hecminde bütün intervalları ehate ederek onları eşitmek ve oktava diapazonunun deton oxumamaq şerti ile yüksek ses pozisiyasında saxlamaq bacarığına yönelmişdir (Nota 2).
- “da-i-da-i...” çalışması samit seslerin sait sesleri formalaşdıraraq düzgün ve selis diksiyanı formalaşdırır (Nota 3).
- “bel-canto” kvinta ve oktava intervalında oxunan bu çalısma yüksek notda nefes saxlama texnikasına aiddir ve ses diapozonunun genişlenmesine kömek edir (Nota 4).

## Xuraman Qasımova'nın Türkiyede Konsert Fealiyyeti

04 noyabr 1990-cı ilde İstanbul'un tanınmış Camal Reşit Rey konsert salonunda bacısı Fidan xanım ve pianoçu Ferhad Bedelbeyli ile birge keçirilen solo konsert tamaşaçıların yaddaşlarında hekk olmuşdur. Görkemli ifaçıların diger ugurlu çıxışları eyni adlı konsert salonunda 19 fevral 1992-ci ilde baş tutmuşdur.Qasımova bacıları konsertde C.B.Perqolezi, C.Kaççini, V.Bellini,Y.Haydn,V.A.Motsart, F.Şubert, R.Şuman, C.Puççini,J.Verdi, F.Çilea ve Ü.Hacıbeylinin eserlerinden ibaret musiqi çelengini tamaşaçılara teqdim etmişdiler. Professionallıq ve ustalıq nümayiş etdiren

müğennilerin ifasında yüksek medeniyyet, zövq, intellekt, temperament hiss olunurdu. Görkemli senetkarların 19 mart 1994-cü il Camal Reşit Rey sehnesinde pianoçu professor Ferhad Bedelbeyli ile baş tutan daha bir konsertleri çox böyük müveffiqiyetle keçerek böyük eks -seda doğurmuşdur. Bu gecede H.Pörsel, V.Bellini, F.Hendel, Y.Haydn, C.Puççini, F.Şubert, P.İ.Çaykovski, S.Raxmaninov, Q.Qarayev, A.Melikov ve başqa bestekarların eserleri türk tamaşaçıları terefinden böyük reğbetle qarşılanmışdır. Hemin konsertlerin afişaları indiye qeder Xuraman xanımın şexsi arxivinde qorunur.

**Xuraman Qasımova'nın İstanbul Şehrinde Konsertleri**

Hele, 1991-ci ilde Türkiye'nin iş adamı Naid Kabakçının İstanbul şeherinde teşkil etdiyi konsert Xuraman xanımın professional ifası sayesinde böyük uğur qazanmışdır. İstanbul'un iri hecmli "Alarko" salonunda baş tutan konsertde azerbaycan ve türk bestekarlarının eserleri, Azerbaycan xalq mahnıları, romanslar, elece de Qerbi Avropa bestekarlarının eserleri seslendirilmişdir. Maraqlısı budur ki, pianoçu Ferhad Bedelbeyli özünün bestelediyi eseri ilk defe mehz türk tamaşaçıları için teqdim etmişdir. F.Bedelbeylinin hemin konsertde seslenen "Deniz" kompozisiyası böyük maraqla qarşılanmışdır. Bu konsertde hemin dövrde Türkiyeye rehberlik eden Turqut Özal ve xanımı da iştirak etmiş ve Xuraman xanımın senetine olan maraqlarını nümayiş etdirmişler.

Xuraman ve Fidan Qasımova'nın Türkiye'de verdikleri maraqlı konsertlerden biri de 16 iyun 1998-ci ile aiddir. İstanbulun Atatürk Kültür Merkezinde teşkil olunan konsert iki hisseden ibaret idi:

- Birinci hissede G.F.Hendelin, V.A.Motsartın, V.Bellinin, C.Verdinin, C.Pucçininin klassik opera eserlerinden parçalar ifa olunmuşdur.
- İkinci hissede ise Azerbaycan, Türk ve Rus bestekarlarının eserlerinin ifasını türk dinleyicilerine çatdırmışlar.

Xuraman xanımın ifasında Tofiq Quliyevin ve Ferhad Bedelbeylinin eserleri çox böyük maraqla qarşılanaraq tamaşaçıların zövqünü oxşamışdır. Konsertin birinci hissesinde görkemli ifaçıları tanınmış pianoçu Elizabet Distefano, ikinci hissesinde ise Murad Adıgözelzade müşayiet etmişdir. Qasımova bacılarının birge çıxış etdiyi bütün konsertlerde resmi dövlet nümayendeleri, o cümleden Azerbaycan Respublikasının Türkiye'deki sefiri ve İstanbul baş konsulu da iştirak etmişler. 1998-ci ilde baş tutan konsert "İstek" vakfının başqanı Bedreddin Dalanın kömeyi ile teşkil edilmişdir (Rzayev, 2009: s.4).

Ümumiyyetle, Xuraman Qasımova'nın Türkiye2ye seferleri davamlı olmuşdur. Xüsusile, Türkiye ve Azerbaycan arasında olan dostluq münasibetleri bu görkemli senetkarın da fealiyyetine öz tesirini göstermişdir. İstanbul ve Vyana universitetlerinin musiqi estetikası üzre professoru İsmayıl Kunali bele bildirmişdir*: "Xuraman xanımın senetile tanış olmaq mene böyük zövq verdi. O, en gözel teriflere layiq senetkardır"* (web 1).

**Xuraman Qasimova'nın Ankara Şeherinde Konsertleri**

Bele maraqlı konsert proqramlarından biri 7 noyabr 2003-cü digeri ise 21 dekabr 2006-cı il tarixlerinde Ankaranın Bilkend konsert salonunda Bilkend simfonik orkestrinin müşayieti ile keçirilmişdir. Hemin konsertde Fidan ve Xuraman Qasımova bacıları Azerbaycan ve Qerb bestekarlarının eserlerinden ibaret geniş proqramla çıxış etmişler. Proqramda H.Pörsel, İ.S.Bax, C.B.Perqolezi, C.Rossini, F.Şubert, R.Şuman, F.Mendelson, V.Bellini, J.Bize, J.Offenbax, R.Leonkavallo, L.Bernstayn, S.Frank, F.Bedelbeyli kimi bestekarların repertuarına müraciet edilmişdir. Özlerine mexsus geniş ses imkanları ve ifa terzleri ile seçilen müğennniler türk dinleyicileri terefinden reğbetle qarşılanmışlar. Qeyd edek ki, tanınmış viola ifaçısı, professor Server Qeniyev uzun iller boyu Türkiyede çalışmış ve Bilkend simfonik orkestrinde fealiyyet göstermişdir. Qasımova bacılarının Bilkend konsert salonundakı keçirdikleri konsertde orkestre Server Qeniyev dirijorluq etmişdir. Bilkend simfonik orkestrinde çalışanların ekser hissesi Azerbaycandan Türkiyeye köçüb burada meskunlaşan ve fealiyyet gösteren musiqiçilerden ibaretdir. Bu simfonik orkestrin her bir konserti uğurla keçerek telebkar türk dinleyicileri terefinden memnunluqla qarşılanırdı. Qısa zaman erzinde orkestr yalnız Türkiyede deyil, elece de bir çox Avropa ölkelerinde müveffeqiyyetle çıxış etmiş ve musiqiçilerin böyük reğbetini qazanmışdır. Ümumiyyetle, hem Xuraman Qasımovanın, hem de Fidan Qasımovanın istedadı, ifaçılıq seneti Türkiyede hemişe sevilmişdir. Her iki

ifaçının dost Türkiye respublikasında çoxsaylı perestişkarları vardır. Türkiyede davamlı olaraq, konsert fealiyyeti ile meşğul olmalarına baxmayaraq, onların her bir çıxışı tamaşaçıların böyük marağı ile qarşılanmışdır.

Hem Xuraman xanımın, hem de bacısı Fidan xanımın fealiyyeti Türkiye hökümeti terefinden yüksek deyerlendirilmişdir. Bele ki, Qasımova bacıları Türkiyenin Medeniyyet Nazirliyi terefinden "Atatürk Cocuqları" adlı mükafata teqdim edilmiş ve her ikisi bu xüsusi mükafata layiq görülmüşler. Elece de, Xuraman xanım ve bacısı Fidan xanım İstanbul Üniversitetinin "Fexri Akademik"i adı ile teltif edilmişler.

**Xuraman Qasımova'nın Türkiye'deki Görüşmeleri**

Xuraman xanım Türkiyede pedaqoji fealiyyetini başa vursa da, o, konsert seferlerine gelen zaman mütleq şekilde professional enenesi yaratdığı vokal ifaçılıq senetinin inkişafı ile maraqlanırdı. O, vaxt mehdudluğuna ve konsert proqramının gerginliyine baxmayaraq, musiqi tehsili veren universitetlere gederek, Türkiye'de vokal senetin inkişafı ile maraqlanır ve öz deyerli tövsiyelerini verirdi. Bele maraqlı görüşlerden biri de İstanbul universitetinde olmuşdur. Xuraman xanım bu barede öz fikirlerini bele bölüşür:

> *"Men her zaman Türkiye'ye konsert seferine geden zaman her bir saheye yaradıcı münasibet göstermeye çalışırdım. İstanbul2da konsert veren zaman konservatoriyanın professor ve müellim heyeti ile yaradıcı görüşler keçirmeye çalışırdım ve her zaman bele görüşler teşkil olunurdu. Men Türkiye'de Azerbaycan medeniyyetine olan böyük marağı müşahide edirdim ve çalışırdım ki, iki dövlet arasında münasibet hem de musiqi tehsili sahesinde de davam etsin. Lakin en böyük çetinliyimiz not materiallarının olmaması olurdu. Çalışırdım ki, her zaman Türkiye'ye gedende özümle Azerbaycan bestekarlarının vokal eserlerinin not yazısını aparım. Çünki not materialı olmadan Azerbaycan vokal musiqisine aid olan eserlerin konservatoriyanın tedris proqramına daxil edilmesi mümkün olmurdu"* (Araştırmacının X.Qasımova ile görüşmesi. 5 dekabr 2022-ci il).

Opera sehnesinde Xuraman Qasımova Ç.Puççini, C.Verdi, R.Leonkavallo, P.İ.Çaykovski, Ü.Hacıbeyli, F.Emirov ve diger bestekarların operalarında esas partiyaları ifa etmişdir.

Görkemli ifaçı ilk defe Türkiye'de 1983-cü ilde İstanbul festivalında iştirak etdiyini bildirmişdir. Bele ki, o zaman sovetler birliyinin terkibinde olan Azerbaycandan Türkiye'ye konsert vermeye gönderilen müğennilerin arasında Xuraman Qasımova da olmuşdur. Festival çerçivesinde Ankara şeherinde Xuraman xanım tanınmış opera müğennisi Lütfiyar İmanovla birlikde Üzeyir Hacıbeylinin "Arşın mal alan" operettasında çıxış etmişdir. Hemin tamaşada Xuraman xanım Gülçöhreni, Lütfiyar İmanov Esgeri, diger partiyaları ise türk ifaçıları ifa etmişdir. "Arşın mal alan"ın bir defe ifa olunması nezerde tutulsa da, tamaşanın türk tamaşaçıları terefinden beyenilmesi neticesinde üç defe sehneye qoyulur. Müsahibe zamanı Xuraman xanım Türkiye ile ilk tanışlığının onda böyük teessüratlar yaratdığını bildirmiş ve onların klassik musiqiye olan böyük maraqlarının olduğunu vurğulamışdır (Eliyeva, 2003: 47).

**Xuraman Qasımova Türkiye'de "Aida" Operasında İfası**

Xüsusile, Ankarada C.Verdinin "Aida" operasında Aida obrazının türk ifaçıları ile birlikde ifasının uğurlu olmasını vurğulamışdır. Bele ki, 1995-ci ilin noyabr ayında Xuraman Qasımovanın Ankara şeherinde C.Verdinin "Aida" operasında baş qehremanı ifa etmesi Türkiye'nin medeni heyatında böyük bir hadise kimi qiymetlendirilmişdir. Xuraman Qasımova bu operada Ankara'da keçirilen qastrol seferleri çerçivesinde çıxış etmişdir. Mükemmel soprano sesine ve gözel sehne texnikasına malik olan Xuraman xanım Aida obrazının daxili alemini, onun facievi taleyini derinden açmağa nail olmuşdur. Melumdur ki, "Aida" operasında enenevi ariyalar evezine böyük monoloq sehneleri ve duetler evezine dialoq sehneleri esas yer tutur. Xuraman xanım böyük senetkarlıqla Aida ve Radamesin duetlerinde birge oxuma zamanı özünün ses imkanlarını, yüksek peşekarlıq seviyyesini açmağa nail olmuşdur. Xüsusile, Xuraman xanım Aida ile Amnerisin sehnelerinde Verdi için seciyyevi olan menevi qarşıdurmanı derinden açır. Operasının son sehnesinde Aida ile Radamesin lirik duetinde Xuraman xanım şerq qadınına mexsus bir temperamentle ifa etdiyi obrazın xarakterini göstermeye nail olmuşdur. Melumdur ki, C.Verdi operada şerq mühitini yaratmaq için müxtelif ladlara esaslanmış, bezi sehnelerde şerq aletlerinin tembrini yaradan seslenme effektlerinden istifade etmişdir. Xuraman xanımın yaratdığı Aida obrazında esas qehremanın mehz bu xüsusiyyetleri açaraq, dinleyiciye çatdırılmışdır. Xuraman xanımın esrarengiz sesini

Aidanın ariyasında, gözel sehne ifasını ise Misir fironunun qızı Amnerisle olan sehnede daha bariz şekilde görmek mümkündür. Ankara Operasının musiqi direktoru ve dirijoru italiyalı Antonio Pirolli “Aida” operasında Xuraman xanımın çıxışı haqqında bele bildirmişdir:

> *“Xuraman xanım fövqelade istedada malik bir senetkardır. Çox gözel bir ifa terzine malikdir. İnanıram ki, bu tamaşa türk dinleyicileri terefinden beyenilecekdir”* (web 2). Tamaşadan sonra Xuraman xanım verdiyi müsahibede bele bildirmişdir: *“İnanın ki, tamaşa bitdikden sonra çox heyecanlıyam. Bu menim Türkiye’de ilk çıxışım deyildir. Men texminen 12 il evvel de burada çıxış etmişem ve bu menim Türkiye’nin böyük sehnesinde ikinci çıxışımdır. Ona göre de burada artıq meni tanıyırdılar. Menim yaradıcılığıma beled olanlar bilirler ki, men Aida obrazını çox sevirem ve bu rolu her zaman hevesle sehnede yaradıram. Tamaşaçıların alqışlarında hiss eledim ki, ifa etdiyim obraz onlar terefinden beyenilmişdir”* (web 2).




**Foto 3.** Xuraman Qasimova C.Verdinin “Aida” operasından sonra müsahibe zamanı (Ankara, 1995)

Onu da bildirek ki, Xuraman xanımın Ankara sehnesinde çıxışı eyni zamanda burada pedaqoji fealiyyetle meşğul olan görkemli ifaçının vokal ustalığı ve aktyorluq bacarığının ifadesi idi. O, sehnede çıxışı ile bir növ onun vokal imkanlarından faydalanmağa çalışan türk ifaçılarına professionallıq seviyyesini nümayiş etdirmişdir.

**Xuraman Qasımova’nın Leyla Gencerle Görüşmesi**

Xuraman ve Fidan Qasımovalar görkemli Türk opera ifaçısı Leyla Gencer ile de görüşmüş ve Türk vokal ifaçılarının yetişdirilmesi istiqametinde onunla söhbetler apardığını bildirmişdir. Xuraman xanımla tanış olan erefede Leyla Gencer İtaliyada La Skala Opera Teatrında genc solistler qrupuna rehberlik edirdi ve vokal sahede böyük tecrübeye malik idi. Vokalçıların Türkiyede teşkil olunan müsabiqesinde onlar daha yaxından tanış olub, genc vokalçıların yetişmesinde lazım olan bilikleri bir-biri ile bölüşmüşler. Müsahibe zamanı Xuraman xanım Leyla Gencerle olan fotolarına baxaraq, çox gözel teessüratlarını bölüşür ve bu böyük senetkarın Türkiye vokal senetinin dünya seviyyesinde tanınmasında ehemiyyetini vurğulayırdı. Maraqlısı budur ki, hemin müsabiqede Leyla Gencer Türkiyede fealiyyet gösteren görkemli senetkarların yetişdirdiyi telebelerin ifasını eşidende onda böyük maraq oyanmış ve o, Azerbaycan opera ifaçıları ile şexsen tanış olmaq istemişdir. Belelikle, ilk defe sehne arxasında görüşen bu görkemli senetkarlar arasında semimi dostluq münasibetleri yaranmışdır. X.Qasımova L.Gencere öz tedris metodikası haqqında melumat vermiş ve Azerbaycan musiqi senetinde vokal ifaçılıq senetinin inkişaf yollarından behs etmişdir. Eyni zamanda o, öz pedaqoji tecrübesine esaslanaraq, Türkiyede vokal senetin inkişafına öz kömeyini göstereceyini Leyla xanıma bildirmişdir. Xuraman xanım xatırlayır ki, hemin müsabiqede türk vokal ifaçısı Üzeyir Hacıbeylinin “Koroğlu” operasından Hesen xanın ariyasını ifa edirdi ve bu ifa Leyla xanımın böyük marağına sebeb olmuşdur. O, genc vokal ifaçının düzgün klassik formada oxumasını ve sesinin imkanlarını bacarıqla yöneltmesini mükemmel vokal tehsil alması ile elaqelendirmiş ve onu maraqla izlemişdir. Hem ifa olunan ariya, hem de türk vokal ifaçının oxuma terzi L.Gencer terefinden yüksek qiymetlendirilmişdir. Bundan sonra görkemli türk opera ifaçısı hem Xuraman xanımın, hem de bacısı Fidan xanımın pedaqoji fealiyyetinin türk gencleri için böyük tapıntı olduğunu bildirerek, onlarla gelecekde de elaqelerini davam etdirmişdir.

## Sonuç

Xuraman Qasımova'nın Türkiye fealiyyeti onun yaradıcılığının en zengin dövrü olmaqla yanaşı, senetkarın vetenden kenarda uzun müddet yaşayaraq fealiyyet gösterdiyi dövr kimi de seciyyelene biler. Görkemli senetkar burada müeyyen dövr erzinde fealiyyet göstermesine baxmayaraq, o, sonrakı illerde Türkiye'ye konsert proqramı ile çıxış etmeye gederken, vokal ifaçılıq tehsili ile maraqlandığını, her zaman türk vokal ifaçılarına öz tövsiyeleri ile destek olduğunu bildirmişdir. Xuraman Qasımova'nın Türkiye'de pedaqoji ve yaradıcılıq fealiyyetini tehlil ederek, elde etdiyimiz neticeleri aşağıdakı müddealarla ifade etmek mümkündür:

- Xuraman Qasımova'nın Türkiye Cümhuriyyetine olan marağı onun iki xalq arasında münasibetlerinden yaranmışdır.
- X. Qasımova'nın Türkiyede'ki fealiyyeti pedaqoji ve ifaçılıq sahelerini ehate edir.
- X.Qasımova Türkiyede vokal üzre tedris proqramını professional teleblere uyğun olaraq tertib etmişdir
- X.Qasımova Avropa enenelerine esaslanaraq, Türkiye'de genc kadrların hazırlanmasına nail olmuşdır.
- Xuraman xanım bacısı Fidan xanımla birlikdeTürkiye'nin müxtelif şeherlerde teşkil olunan konsert fealiyyeti ile meşğul olmuşlar.
- X. Qasımovanın fealiyyeti Türkiye hökumeti terefinden yüksek qiymetlendirilmişdir.
- Xuraman xanım görkemli türk opera ifaçısı Leyla Gencer ile de görüşmüş ve Türk vokal ifaçılarının yetişdirilmesi istiqametinde onunla fikirlerini bölüşmüşdür.

Hazırda Ü.Hacıbeyli adına Bakı Musiqi Akademiyasında "Solo oxuma ve opera hazırlığı" kafedrasının müdiri vezifesinde çalışan Xuraman Qasımova Türkiye'de çalışdığı illeri yaradıcılıq yolunun mükemmel dövrü kimi deyerlendirir. O qeyd edir ki, dünyanın bir çox ölkelerinde çoxsaylı uğurlu konsertler vermiş ve her zaman dinleyiciler terefinden sevincle qarşılanmışdır. Her defe xarici dövletlerde uğurlu çıxışlarından sonra ona burada qalıb pedaqoji fealiyyet göstermeyi tekidle xahiş etseler de, Xuraman xanım yalnız Türkiye'de pedaqoji fealiyyet göstermeye hevesle razı olmuşdur. Bunun esas sebebini Xuraman xanım Türkiye'ye olan derin sevgisi ile izah edir. Görkemli senetkar Türkiye'de klassik enenelere esaslanan professional tehsilinin formalaşmasına tesir gösterdiyini vurğulayaraq, orada keçirdiyi illeri ve pedaqoji fealiyyetini her zaman xoş teessüratlarla hatırlayır.

## Öneriler

Bu araştırmada Xuraman Qasımovanın Türkiyede fealiyyet dövrüne nezer salınmış ve onun buradakı pedaqoji ve ifaçılıq fealiyyeri araşdırlmışdır. Türkiyedeki fealiyyet dövrü X.Qasımovanın yaradıcılığında mühüm ehemiyyet daşıyır ve pedaqoji metodikasının inkişaf etdirilmesinde mühüm rolu vardır. X.Qasımovanın hem ifaçılıq, hem de pedaqoji fealiyyeti professional vokal senetin tedqiqi baxımından araşdırmacı yanaşması ve dikkati teleb edir. Gelecek araşdırmalarda X.Qasımovanın vokal oxuma metodikasının ehemiyyetini hem Türkiyede, hem de Azerbaycanda tehlil etmek mühümdür. Bu araşdırma vokal ifaçıları ve pedaqoqlar için de metodik vesait kimi deyerli ola biler.

## Teşekkür

Tedqiqatımda vaxt tapıb menimle söhbet eden hörmetli senetkarımız Xuraman Qasımovaya maraqlı müsahibeleri, verdiyi deyerli materiallar için derin teşekkürümü bildirirem.

**Yazar Özgeçmişi**



**Nigar Melikova**, 13.06.1979 Azarbaycan'da doğmuştur. Mezun olduğu okullar; 1995-1998- ci iller Bülbül adına orta ixtisas müzik okulu, 1998-2002-ci iller "piyano" uzmanlığı üzre Ü.Hacıbeyli adına Bakü Müzik Akademisi, bakalavr, 2002-2004-cü iller Ü.Hacıbeyli adına Bakü Müzik Akademisi, magistr. Çalıştığı yer; 2002 - Ü.Hacıbeyli adına Bakü Müzik Akademisi, "Solo oxuma ve opera hazırlığı" kafedrasında piyano eşlikçisi; 2012 - Ü.Hacıbeyli adına Bakü Müzik Akademisi "Metodika ve pedaqoji hazırlıq" kafedrasında öğretmen. 2020 yılından doktora tezi üzerinde çalışır. Azerbaycan Cumhuriyeti

Cumhurbaşkanı'nın 17 Eylül 2021 tarih ve 2903 sayılı Kararnamesi ile “Onurlu Sanatçı” adına layık görülüb. E-mail: m.nigar79@mail.ru ORCID: 0000-0003-4661-4553.

## Kaynaklar

İstanbul senetçilerimizi alqışlayır (İstanbul sanatçılarımızı ağırlıyor) (1998). Azerbaycan dergisi.

Rzayev, T. (2009). Fidan ve Xuraman Qasımovaların Ankarada konserti (*Fidan ve Huraman Gasimova'nın Ankara Konseri*). Xalq dergisi.

Абдуллаев, К. (1991). Выступление звезд мирового класса (Ünlü yıldızların performansı) Vışka dergisi.

Алиева, Н. (2003). Bellissimo! Фидан и Хураман Касимовы *(Bravo, Fidan ve Huraman Qasımovalar).* Bakı, Adiloğlu.

Искендерова, Н. (2017). Грани таланта *(Yeteneğin Yönleri).* Bakı, Aspoliqraf.

**Görüşme Yapılan Kişi:**

Xuraman Qasımova ile görüşme (5 dekabr 2022-ci il)

**Web 1:** https://az.wikipedia.org/wiki/Xuraman_Qas%C4%B1mova

**Web 2 :** https://www.youtube.com/watch?v=o8R-EDw2QEI

## Characteristics of the period of activity of the Azerbaijan opera singer Khuraman Gasimova in the Republic of Turkey

**Abstract**

The article is dedicated to researching the activities of the distinguished Azerbaijani opera singer, People's Artist, professor Khuraman Gasimova in the Republic of Turkey. Mrs. Khuraman participated in the international festival held in Turkey for the first time in 1983. Kh.Gasimova, who was invited to Turkey in 1994, worked as a teacher at Istanbul University Conservatory until 1997. Mrs.Khuraman played an important role in the training of young personnel in addition to her pedagogical and acting activities in Turkey. The article examines in detail the teaching methodology of Kh.Gasimova, which is completely different from the music education taught in Turkey. The use of teaching methods based on the traditions of the European vocal school is typical for Kh.Gasimova's pedagogical activity. Mrs.Khuraman managed to reorganize the voice training program in Turkey according to professional requirements, and in the meantime, she relied on the method of gradually building the student's performance skills. Kh.Gasimova created a new teaching methodology in line with the creation of academic sound performance traditions in Turkey and gave importance to studies related to sound. The basis of its methodology is the preservation of the voice and the comfortable development of the voice of the vocal performer.

**Keywords:** Khuraman Gasimova, Turkey, education, vocal, concert, soprano, vocal art